MURAD ƏSƏDOV
*Bakı Dövlət Universitetinin əməkdaşı*

# ERMƏNI-PKK TERROR TƏŞKILATLARININ ƏLAQƏLƏRI VƏ TÜRKIYƏ

Tevfik Paşa, I Dünya Müharibəsi sonar təşkil olunan Paris sülh konfrasında Osmanlı dövlətini təmsil etməyə getmişdi..Fransa Xarici İşlər nazirliyinə gələn Paşa burada gördüyü mənzərədən heyrətləndi.Fransa səfirinin bir yanında erməni Bogos Nübar, digər bir yanında kürd Şərif Paşanı görmüşdü.[7]

Müasir dövrdə terror sadəcə bir ölkənin və ya bir bölgənin qarşılaşdığı bir məsələ olmaqdan çıxmış,dünyanın hər bölgəsində və deмək olar ki, bütün dövlətlərində rast gəlinən bir gerçəklik olmuşdur.Xüsusilə ideoloji bir təmələ dayanan terror hərəkətləri bəzən də sosial, siyasi, dini və etnik formalarda ortaya çıxmışdır. İkinci dünya müharibəsi qurtardıqdan sonra dünyada yaranan mülayimləşmə qısa müddətdən sonra pozuldu. İki qütbləşmə yaranmışdır: bir tərəfdə kapitalist dövləti olan ABŞ və müttəfiqləri, digər bir tərəfdə sosialist dövləti olan SSRİ və onun müttəfiqləri.Bu iki hegemon dövlət arasında gedən soyuq müharibə dünyada müəyyən qlobal məsələlərə yol açmışdı ki, bu da bir sıra dövlətlər üçün problemlerə gətirib çıxarmışdı. İki dövlət arasında olan bu savaşın daha çox təsir etdiyi ölkələrdən biri də Türkiyəyə idi. Bu dönəmdə dünyada terrorizm, milliyyətçilik ideologiyaları getdikcə artır, gənclik hərakatları, terror təşkilatları çoxalırdı. Bu dönəmdə Türkiyədə xüsusilə milliyətçilik, sosialis-komunizm ideologiyaları geniş yayılmışdır. Kürd və erməni terror təşkilatları daha çox fəallıq göstərirdilər.Türkiyənin həm daxilində, həmçinin də xaricdə vəziyyəti qarışıq idi. XX əsrin 70-ci illərindən etibarən bu terror təşkilatları on minlərlə türk vətəndaşının qətlə yetirilməsinə səbəb olmuşdur. Lakin bunlara baxmayaraq,Türkiyədə baş verən bu terror aktları dünya ictimaiyyətinin diqqətindən kənarda qalırdı.

XX əsrin 70-ci illərində Türkiyədə milliyyətçilik, kürdçülük və erməni milətçiliyi daha da fəallaşmışdılar.Bu illərdən etibarən Türkiyənin bir sıra elmi-tədris ocaqlarında milliyyətçi dərnəklər və təşkilatlar yaranmağa başlamışdır.Bunlardan Avropa Kürd Tələbə Cəmiyyətini göstərmək olar. 1963-cü ildə İstanbul Universitetində müxtəlif xarici tələbələrlə birlikdə təhsil alan millətçi kürd tələbələr birlikdə yaradılan təşkilatdır.1968-ci ildə Türkiyə Kürdüstan Demokratik Partiyası bir qrup millətçi kürd tərəfindən yaradılmışdır. Həmçinin İnqilabçı Şərq Mədəniyyət Dərnəkləri( Devrimçi Doğu Kültür Ocaqları) bu illərdən Türkiyədə fəaliyyətə başlamışdı və bu təşkilat tamamilə sosialist tipli təşkilat idi. Bunlarla yanaşı Türkiyə Kürdüstan Sosialist Partiyası, 1976-cı ildə Kavaçılar və başqa milliyyətçi təşkilatlar yaranmışdılar və onlar Türkiyə daxilində irimiqyaslı fəaliyyət aparırdılar.[1.s;139-140 ]. Ümumiyyətlə XX-ci əsrin 70- ci illərində Türkiyədə həm daxildə, həm də xaricdə türklərə, xüsusən diplomatlarına qarşı terror getdikcə artmaqda idi. Türkiyə Cümhuriyyətini qurulmasından 1965-ci ilə kimi sakit bir zaman keçirirdi. Lakin erməni lobbisinin dəstəyi ilə terror hərəkətləri birdən-birə təkrar ortaya çıxmağa başlamışdılar.Dünyada türk diplomatlarına qarşı terror güclənmişdir.1972-ci ilə qədər dünyada erməni terror təşkilatları tərəfindən 20-yə qədər türk diplomatlarına qarşı terror hadisələri törədilmişdir.Bu dönəmdə Daşnak və Hnçaq terror təşkilatlarından danışılır.Lakin bunların yanında adından ən çox söz edilən və erməni terroru adı ilə daha çox hallanan "Ermənistanın qurtuluşu üçün erməni gizli ordusu" təşkilatının adının qısaldılmış şəkli olan Asala terror təşkilatıdır.

Erməni terror təşkilatları, xarici dünyanın təzyiqləri üzərinə 1980-cı illərdə taktikanı dəyişdi PKK terror təşkilatı ilə əlaqəyə girmişdir. 1984-ci ildə cərəyan edən Eruh

və Şemdil hücumları ilə PKK terror təşkilatı ortaya çıxmış və Asala-Ermәni terror təşkilatı geri plana çəkilmişdir. Hələ İkinci dünya müharibəsi başa çatdıqdan sonra Türkiyədə yaranan kürd-milliyyətçi təşkilatlarla erməni terror təşkilatları arasında gizli əlaqələr yaranmağa başlamışdır. 80-cı illərdə kürd milliyyətçi təşkilatı olan PKK terror təşkilatı və erməni terror təşkilatı olan Asala arasında əlaqələr daha da genişləndi. Hətta bu iki terror təşkilatının Türkiyəyə qarşı bəyanatları da yayıldı.Bu bəyanatda erməni gizli azadlıq ordusu və Kürd Fəhlə Partiyası Türkiyədən intiqam alacaqlarını və " öz torpaqlarını" yenədə ələ keçirəcəklərini bildirirdilər. [2 s;91] Onların birgə bəyanat verməsi təəccüblü deyildir. Çünki bu təşkilatların hər ikisi xüsusi sovet xidmət orqanlarının təsiri altında idi. Kürd Fəhlə Partiyası sovetlərin himayədarlığı ilə yaradılmışdı. Onun sıralarında çoxlu mənşəcə erməni olan, lakin kürd adı və soyadı ilə yerləşdirilmiş çoxlu sayda adamlar var idi.

PKK terror təşkilatı və erməni gizli təşkilatı olan Asala arasındakı bu bablılığın bir neçə səbəbi vardır ki, bunlar aşağıdakılardır:

Terror təşkilatı PKK 21-28 aprel 1980-cı il tarixini "Qızıl Həftə" olaraq elan etmiş və 24 aprel 1915-ci il tarixini yalançı "erməni soyqırımı günü" kimi qəbul edərək və onları qeyd etməyə başlamışdır.

8 aprel 1980-cı il tarixdə Lübnanın Sidon əyalətində PKK və Asala terror təşkilatlarının ortaq toplantıları keçirilmişdi və bu yığıncağın sonunda bir sənəd qəbul olunaraq və yayımlanmışdı. Lakin buna baxmayaraq, hər iki terror təşkilatının əlaqələrinin gizli davam etdirilməsini qərara almışdı. 9 noyabr 1980-cı il tarixdə isə Romada Türk Hava Yollarında baş verən terror hadisələri PKK və Asala terror təşkilatları tərəfindən terror həyata keçirilmişdi.

PKK terror təşkilatının rəhbəri olan Abdullah Öcalan erməni yazıçıları tərəfindən "Böyük Ermənistan xəyali fikrində olan rəğbətindən dolayı"onu namizəd kimi seçmişlər.

Erməni Xalq Hərəkatının daxilində bir çox Avropa ölkəsində olduğu kimi Kürdüstan Komitəsi yaradılmışdı.

İki terror təşkilatı erməni militanlarının yaradıldı Ermənistanın qurtuluşu üçün Erməni gizli ordusu –Asala və kürd milliyyətçiləri tərəfindən PKK-Kürd Fəhlə Partiyası. Bunları birləşdirən nədir. Asala terror təşkilatı Akop Akopyan tərəfindən 20 yanvar 1975-ci ildə Lubnanda rəsmi olaraq yaradılmışdır.Asala terror təşkilatının Marksizm-Lelininçilik bir ideolagiyasıdır.[6]. Bu dövrdə Türkiyəni narahat edən yeni bir təşkilat PKK(Partiya Kargərani Kürdüstan) terro təşkilatının daha böyük fəaliyyət göstərmişdir. Bu təşkilat gah marksist-lelininçilərə rəğbət göstərir,gah da milliyyətçilik-kürdçülüyə meyl edirdi.[1 s 141] Buradan da göründüyü kimi hər iki təşkilatın ideyası eynidir, Türkiyə ərazisinə iddia edirlər.Amma maraqlıdır ki, hər iki təşkilat həm də eyni ərazilərə iddia edirlər.Asala və PKK terror təşkilatları arasında əlaqələr "Etnik İttifaq"kimi formalaşmışdır.80-cı illərdən başlayaraq Asala terror təşkilatı erməni lobbisinin daha geniş fəaliyyət göstərdiyi ölkələrdə,xüsusən Fransada daha geniş fəaliyyətə keçmişdir. Bu hadisələr yaşanarkən, Asala terror təşkilatı strateji dəyişikliyə yönəlmiş və PKK terror təşkilatı ilə işbirliyinə girmişdir. Bu əlaqələrin təməli Lübnanda Bekaa və Zeli adlanan düşərgələrində,Asala terror təşkilatı üzvlərini öyrədən,İsrailə qarşı müharibə etməkdə olan Fələstin qruplarından Fələstin Xalq Qurtuluş Cəbhəsinin (FXQC) lideri Georgi Habbaş tərəfində hazırlanan bir toplantılda bir araya gətirilmişdilər. Sonralar isə bu iki təşkilat 1979-cu ildə Lübnanda bir araya gəlmiş və Türkiyəyə qarşı bir ortaq qərara gəldiklərini səsləndirmişdilər. Burada diqqət çəkici bir məqam hər iki terror təşkilatının ideoloji məqsədləri və istəklərinin eyni olmasıdır. Bu qədər bənzər xüsu-

siyyətlərin olması iki terror təşkilatın əlaqələri doğru olaraq bir-birinə keçən "bir bayraq yarışı" havası yaratmaqdadır. [7]

Əlaqələrin bu istiqamətdə getməsi səbəbinin daha yaxşı başa düşülə bilməsi üçün bu iki terror təşkilatının ideologiyasının və məqsədlərinin nə olduğunu incələmək lazımdır. Qeyd edildiyi kimi hər iki terror təşkilatı eyni məqsədə qulluq edir, Türkiyənin şərq və cənub-şərq Anadolu bölgələri daxilində sözdə "Kürdüstan dövləti"qurmaq planlarına daxildir. Bu məqsədlə 15 avqust 1985-ci il tarixdə Şəmdinlidə törədilən terror hadisəsidə hər iki təşkilat tərəfindən hazırlanmışdır.Elə keçirilən bölgələr nəticəsində Bekaa və Zeli adlanan məskənlərdə erməni terror təşkilatı Asala ilə PKK terror təşkilatı militanları ilə birlikdə ortaya çıxmışdılar. Həmçinin Ermənistanın Reya Tazə və Bota Redaksiya adlanan mətbuat orqanları PKK terror təşkilatının idarəsində kiril əlifbası ilə yazılmış və PKK terror təşkilatının proqramını, törətdiyi hadisələri yaymaqda idi. Bu qəzetlər Türkiyədən və Avropadan gələn PKK terror təşkilatının üzvləri tərəfindən yayımlanırdı.[4.S;2-3]

1987-ci il tarixdə bölücü terror təşkilatı olan PKK ilə ermənilər arasında bir toplantı olmuşdur. Bu toplantının sonunda müqavilə imzalanmışdır. Müqavilənin şərtləri aşağıdakılardır:

- Ermənilər PKK məskənlərində təlimlər keçəcəkdilər;
- Ermənilər PKK terror təşkilatı daxilindəki fəaliyyətlərdə iştirak edəcəklər;.
- PKK terror təşkilatının üzvlərinə hər il adam başına 5000 ABŞ dolları ödəniləcəkdir;

Baş tutan bu müqavilə sonrasında PKK terror təşkilatı daxilində ermənilər ön plana çıxmışdılar.PKK-Asala əlaqələrində Herməz Samuouyan adlı şəxslə birlikdə 18 aprel 1990-cı il tarixdə yeni bir toplantı hazırlandı və 1987-ci ildəki müqaviləyə əlavə olaraq bir sıra qərarlar qəbul olunmuşdur ki, bunlar aşağıdakılardı:

- PKK və Asala terror təşkilatları artıq ortaq istiqamətlənəcək;
- Türkiyədə müdafiə qüvvələrinə istiqamətlənən terror hadisələrini ermənilər edəcək;
- Mücadilə edəndən sonra əldə edilən torpaqlar yarı bölünəcək;
- Bütün məsrəflərin 75%-ini ermənilər qarşılayacaq;
- Türkiyədə metropoli şəhərlərdə terror hadisələri törədiləcək;

1991-ci ildə Sovetlər Birliyinin dağılması ilə əlaqədar Ermənistan müstəqilliyini elan etmişdir.Beləcə PKK terror təşkilatının üzvlərinin də Ermənistandakı Kürd məskənlərində görünməyə imkan taparaq, burada maddi və mənəvi dəstək görmüş və fəaliyyətlərini sürdürmüşdülər.Belə ki, bir qrup PKK terror təşkilatının militanları 19-20 may 1992-ci il tarixində ermənilərin azərbaycanlılara qarşı etdikləri soyqırım və terror hadisələrinə dəstək vermişdilər.[5 S; 85].

1992-ci il sentiyabr ayından etibarən Türk Silahlı Qüvvələri Şimali İraqda yerləşmiş olan PKK terror təşkilatına qarşı bir əməliyyat həyata keçirmişdilər və təşkilata böyük zərər vermişdilər. Bunun ardından müdafiə olumağın çətinləşdiyini görən PKK terror təşkilatının üzvləri İran və Ermənistana keçmiş və burada aktif fəaliyyətə başlamışdılar. Bununla paralel olaraq yaşanan bir hadisə də, PKK terror təşkilatının Avropadakı təmsilçilərindən olan bir qrup Ermənistana gedərək PKK terror təşkilatının üzvlərinin Qars üzərindən Ermənistana rahatlıqla girib-çıxmalarını təmin etmək üçün bir müqavilə başlamışdılar.[3 S; 11]. Bu müqavilə belə bir anlama gəlir ki, Ermənistan bu addımı atmaqla PKK terror təşkilatının üzvlərinin savaş ünsürü olaraq istifadə etmək istəyidilər.

Ermənistanın PKK terror təşkilatı ilə əlaqələri daha da inkişaf edirdi. Bu fəaliyyətlərin inkişafında başqa bir hadisə 6-9 yanvar 1993-cü il tarixdə baş vermişdir. Beyrutdakı iki kilsə Lübnan Erməni Ortodoksal başyepiskopluğu,erməni partiya nümayəndələri və gənclərin qatıldığı toplantılarda nəticədə aşağıdakı qərarlar verilmişdir: "Türkiyədə daxili mübarizə davam etdiriləcək,Türkiyə iqtisadiyyatı səfər nöqtəsinə enəcək; daxildə vətəndaşlar baş qaldıracaq;Türkiyə bölünəcəkdi və Kürd dövləti qurulacaqdır, ermənilərlə kürdlərin əlaqələri yaxşı bir formada inkişaf etdiriləcəkdir və Kürdlərin mücadiləsini dəstəkləməkdədir. Bu gün türklərin əlində olan torpaqlar sabah ermənilərin olacaqdır"[3 ]

Baş verən toplantıları incələdikdə,əslində bunun Türkiyəyə qarşı inşa edilmiş çox böyük bir təhlükə olduğu görünməkdədir. Asala-Ermənistan-PKK ortaqlığı bir başqa toplantıda 4 iyun 1993-cü ildə erməni Hnçaq Partiyası, Asala və PKK terror təşkilatlarının da nümayəndələrinin qatıldığı Qərbi Beyrutda PKK terror təşkilatının mərkəzində həyata keçirilmiş toplantı idi. Asala terror təşkilatının 1984-ci ildən terror bayrağını PKK terror təşkilatına verməsi ilə başlayan müddəti araşdırdıqda Asalanın fəal terror hadisələrindən çəkildiyini, onun yerini PKK terror təşkilatının doldurduğu və Asala terror təşkilatının da PKK-ya maddi-mənəvi dəstək verdiyi görülməkdədir. Xüsusilə 1991-ci ildə Ermənistanın müstəqilik elan etməsindən sonra, Asalanın PKK terror təşkilatına verdiyi dəstəyə bir də Ermənistandan dövlət dəstəyinin əlavə olunması həm də PKK terror təşkilatının daha da inkişaf etdirmiş, həm də Ermənistanın əlində PKK terror təşkilatı kimi bir bəhanənin keçməsinə səbəb olmuşdur.

1998-1999-cu illərdəki hadisələrin gedişatını daha qabarıq forma almışdır.

1998-ci ilin sonlarında Azərbaycan Müdafiə Naziri Səfər Əbiyev Dağlıq Qarabağ bölgəsində PKK terror təşkilatı ilə bağlı çox sayda terrorçunun yerləşdiyini bildirmişdir. Hətta Səfər Əbiyev məlumat verərək 200 PKK-lının Laçın bögəsində, 457 PKK-lının isə Ermənistanda hazırlıq keçərək Türkiyə ərazisinə keçdiyini də bildirmişdir. 2000-ci ildə baş verən hadisələr isə daha diqqət çəkicidir.2000-ci ilin sonlarında təxminən 900 nəfər PKK terror təşkilatının üzvündən ibarət bir qrup Ermənistan tərəfindən Qarabağa yerləşdirilmişdir.Burada Ermənistan ilə PKK terror təşkilatının "ittifaqının" daha bir forması gözə çarpmaqdadır. Bir tərəfdəndə Ermənistan PKK-lə terroristləri Qarabağda yerləşdirərək bu bölgənin müdafiəsini təmin etmək,PKK terror təşkilatı da özünün sığına biləcək bir bölgə tapmış olacaqdır.

PKK terror təşkilatı və Ermənistanın ortak planları sərhədlərlə deyildir.1999-cu ilin yanvar ayında PKK terror təşkilatının lideri Abdullah Öcalan Ermənistan tərəfindən Dağlıq Qarabağda olan Asala məskəninə gətirilmiş və burada "qonaq"edilmişdir. Ermənistan və PKK terror təşkilatının buradakı məqsədi isə Türkiyəyə qarşı planlar hazırlamaq idi.Abdullah Öcalanın Dağlıq Qarabağa gətirilməsiylə onun harda olduğunu bilmişlər.Ermənistan PKK lideri Abdullah Öcalanın Türkiyəyə verilməsi ilə yalançı respublika olan Dağlıq Qarabağın "de fakto" səviyyəsində tanınmasını məqsədləmişdir. Lakin bu məqsədinə çata bilmədi.

ABŞ İraqı işğal etməsindən sonra Ermənistan-PKK əlaqələri yenə davam edirdi. Türkiyə və ABŞ hücumları PKK terror təşkilatını bir qədər sıxışdırdı.Belə bir şəraitdə PKK terror təşkilatına yenə də "köhnə dost"olan Ermənistan "qucaq" açmışdır. Ermənistan Dağlıq Qrabağda bir məskəni qurmuş və PKK terror təşkilatını bu bölgəyə istiqamətləndirməyə başlamışdır.Bu bölgə strateji tərəfdən yaxşı olduğundan PKK terror təşkilatı üçün əlverişli idi Ermənistanın bölgəyə istiqamətlənən siyasəti nəticəsində 1999-cu ildən sonra Dağlıq Qarabağ bölgəsində PKK terror təşkilatının varlığı hiss edilir dərəcədə artmışdır. Son illərdə baxıldığında isə bu bölgədə PKK militanlarının ailələri ilə birlikdə yerləşdirilməyə başlanılmışdır.

Bütün bu qeyd edilən məsələləri incələdikdən etibarən Türkiyədə hakim olan anarxiyada Asala və PKK kimi etnik təməli terror təşkilatları tərəfindən dəyərləndirilməyə çalışdığı görülməkdədir. Asala terror təşkilatı fəaliyyət göstərdiyi gündən etibarən yalançı "Böyük Ermənistan" xəyalı arxasınca qaçmış və buna paralel olaraq kürd milliyyətçilərinin yaratdıqları PKK terror təşkilatı ilə bir "Etnik İttifaq" yaratmışdır. Sovetlər Birliyi dağılandan sonra Ermənistanın müstəqillik qazanmasından sonra Asala-PKK terror təşkilatlarının ittifaqı gücləndi və Ermənistanın da dəstək verməsi onları xeyli gücləndirmişdir. Bunları incələdikdə belə bir fikrə gəlmək olur ki, PKK-Asala terror təşkilatları milliyyətçilik ideyaları altında öz bədnam siyasətlərini həyata keçirməyə çalışırlar. Lakin hələ də onların bu hərəkətləri bir nəticə verməyib.Erməni-PKK əlaqələrinin yaranması bir çox suallar yaradır ki, bunlara cavab veriləbilməsi üçün tarixin yaxşı təhlil edilməsi və tərəfsiz şəkildə dəyərləndirə bilməsi gərəklidir

### *ƏDƏBIYYAT*

1.Hacıyev.S XX əsrin 60-70-ci illərindəTürkiyədə Kürdçülük və Marksizm-Leninçilik odeyaları// Tarix və onun problemləri.2004 № 2 səh:139-148
2.Qasımlı.M SSRİ-Türkiyə münasibətləri (türkiyədə 1960-cı il çevrilişindən SSRİ-nin dağılmasınadək) 1979-1991. Bakı 2009 səh:3- 393
3.Cemal Korkmaz Ermeni-kürt ittifakının iç yüzü / www/turksolu.org/korkmaz27
4.Ermeni sorunu.PKK ermeni işbirliyi /www.ermenisorunu.gen.tr/teror/PKK
5Mikayil Aras Türk-ermeni ilişkileri ve ilişlkileri dönüştüren teror süreci səh.3-311
6.Sinan Oğan Protokollar imzalanarken Asalanın yeniden piyasaya sürülmesi Neyin işareti./turksan.org/tr/erişim 2010
7.Stajyer Burak Kozanoglu. Etnik teror kapsamında Ermenistan-PKK iliçkileri ve Türkiye./baksam.com/siyaset/Bakı Strateji Araşdırmalar və analiz mərkəzi/2009.11.07

**МУРАД АСАДОВ**
***Сотрудник БГУ***

### ОТНОШЕНИЕ АРМЕНИЯ С ПКК ТЕРРОРИЧЕСКИХ ОРГАНИЗАЦИИ. ТУРЦИЯ

Терроризм является одно из наиболее глобальных и волнующих проблем современности. Терроризм распространилась в некоторых странах мира. Один из этих стран это Турция. В статье говориться о внутреннем положение в Турции 80-тых годов XX века,созданных национальных террорических организациях, курдо-армянских террорических организациях, их совместных действиях и вместе действияхетих двух террорических организациях.

**MURAD ASADOV**
***Worker of BSU***

### RELATIONS BETWEEN ARMENIAN-PKK TERROR ORZANIGATIONS-TURKEY

Terrorism is one of the biggest problems which worry the world in the modern period. Terrorism has spreaded in some countries of the world. The one of these countries is Turkey.The article is about the in terior of Turkey,the chanvinist terror organizations, kurd and armenianterror organization, their joint activities and mutual activities in the eighties of XX century.

***Rəyçilər: t.e.n.S.F.Ruintən, t.e.d.Q.Ə.Əliyev.***

***BDU-nun Tarix fakültəsi «Azərbaycanşünaslıq» Elmi Tədqiqat Mərkəzinin «Dünya azərbaycanlıları» bölməsinin 04 mart 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №01).***